Hürriyyət

Mədəniyyət

SİZİN ÜÇÜN QƏZET

№24 (3363) 15 İyul / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



O, yaşca bizdən çox kiçikdir. Odur ki, yaxşı musiqiçi olsa da, zamanında deyil, onu xeyli sonralar tanımışam. Tanıdığım andan indiyə qədər onunla daim səmimi, xoş münasibətdəyik və yaxşı həmsöhbətik. Təbii ki, söhbətlərimiz, dialoqlarımız daha çox Azərbaycan qarmon sənəti və onun tədrisi ilə bağlı olur.



# Əsl fədakar müəllimdir

Vüsal Süleyman oğlu Qəhrəmanov 1982-ci il iyunun 28-də Bakıda dünyaya gəlib. Ata sürücü, ana evdar qadın olub. Bu ailədə bir qız və bir oğul övladı böyüyüb.

Vüsal 1989-1999-cu illərdə Bakı şəhəri Nizami rayonu 12 saylı tam orta məktəbdə oxuyub. Əmircan qəsəbəsində yerləşən 3 nömrəli uşaq incəsənət məktəbinin 5 illik qarmon sinfində təhsil



alıb. İxtisas müəllimi Vəzifə xanım sevimli şagirdinin əsl musiqiçi kimi yetişəcəyinə inanıb və böyük ümid bəsləyib. Odur ki, o, Vüsala qarşı daha məsuliyyətli olaraq onunla dərs saatlarında daha tələbkarlıq göstərib. Vüsal tədris illərində hər sinfin proqramını layiqincə yerinə yetirər, qammalar, etüdlər, not əsərləri, bəstəkarların mahnıları, xalq oyun havaları və muğamları tələbata uyğun olaraq təhvil verərdi. İxtisas müəllimi onunla ən çətin əsərlər üzərində işləyirdi. Vüsal sinifləri adladıqca, bütün tapşırıqları, hətta əlavələri belə yerinə yetirməyi bacardıqca sürətlə irəliləyir və bütün ümidləri doğruldurdu. Bəli, bəli, bu həqiqətən beləydi. Vüsalın valideynləri sadə insanlar olsalar da, övladların təlim-tərbiyəsinə ciddi nəzarət yetirir, onların gələcək həyatı üçün çalışır və məsuliyyət daşıyırdılar. Vüsalın evdəki qarmon məşqlərinə də yad deyildilər, daim diqqət göstərir, dinləyir və bu işin davamiyyəti üçün onda həvəs oyadırdılar. “Kazan” şagird qarmonu bu sənət üzrə dərs alan bütün uşaqlar kimi Vüsalın da sevimli çalğı aləti və dostu idi. O, öz qarmonu ilə səliqəli davranır və qoruyurdu. Peşəkar sənətkarlara aid qarmon alana qədər “Kazan” ona sədaqətli yoldaş idi. Odur ki, qarmonu onun əlindən, dizinin üstündən düşməzdi. Sonralar, illər ötdükcə Vüsalın da bir-birindən daha üstün üçdörd qarmonları olub.

Hamımız kimi Vüsal da ifasını daha möhkəmləndirsin deyə özfəaliyyət ansambllardan qanadlanıb. O, 1996-1997-ci illərdə Zəngi liseyində tarzən Bayramın rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında çalırdı. 1997-1998-ci illərdə Nizami rayon uşaq yaradıcılıq (hazırda inkişaf) mərkəzində tarzən Abutalıb müəllimin məktəblilərdən ibarət özfəaliyyət xalq çalğı alətləri ansamblının üzvü olaraq inkişafa qədəm qoymaqdaydı. Vüsal Qəhrəmanov hər iki ansamblda çox şey öyrənmiş, püxtələşmiş və sənətə həvəsi daha da güclənmişdi. Bayram da, Abutalıb da instrumental melidiyalarda ona mütləq solo ayırır və konsertlərdəki çıxışlarından məmnun olurdular.

V.Qəhrəmanov “Qönçə” uşaq festivalında uğurla çıxış edərək birinci yeri tutub.

Demək lazımdır ki, Vüsal orta məktəb dərslərini də yaxşı oxuyurdu. Ali məktəbə daxil olmaq məsələsində qərar qəbul etmək nə valideynlər, nə də Vüsal üçün çətin olmadı. Vüsal uşaqlıqda və ilk gənclik illərində musiqi ilə məşğul olaraq artıq özü üçün peşə qazanmaqdaydı. Özünə nəticə çıxarmışdı ki, musiqi sənəti üzrə irəliləsin. O, 2000-2004-cü illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin musiqi fakültəsində xalq çalğı alətləri orkestrinin bədii rəhbəri-dirijor ixtisası üzrə oxuyub. Burada qarmon sənəti üzrə təhsil alıb. İxtisas müəllimi dosent, əməkdar artist Sərxan Abıyev olub. Vüsal oxuduğu təhsil müəssisəsində keçirilən bütün bədii-kütləvi tədbirlər, bu xətlə başqa tədris ocaqlarında təşkil olunan konsertlərdə universitetin xalq çalğı alətləri ansamblının tərkibində müəllim və tələbə müğənniləri müşayiət edib. Bundan başqa o, ADMİU-nun kafedra konsertlərində fortepiano müşayiətilə bəstəkar əsərlərini və ritm alətləri ilə instrumental melodiyaları ifa edirdi. Universitetdə dərs deyən titullu xanəndələrin, professor-müəllim heyətinin başqa məkanlarda, TV və radio verilişlərində çıxışlarını, muğamlar, təsniflər, xalq, aşıq, bəstəkar mahnılarını ansambl tərkibində və solo hissələrlə müşayiət etmişdir. Nəticə onun tam peşəkar ifaçı kimi yetişməsi üçün imkan yaratmışdır.

V.Qəhrəmanov 2021-2023-cü illərdə magistr təhsili də alaraq çox uğurlu nəticə əldə etmişdir. O, ADMİU-nun musiqi fakültəsində “Musiqişünaslıq və musiqi tənqidi” ixtisası üzrə müdafiə etmişdir.

Bütünlükdə götürdükdə V.Qəhrəmanovun ali təhsil illəri uğurlu, sanballı olaraq onun əsl mütəxəssis, ixtisaslı kadr kimi yetişməsi üçün tam imkan və şərait yaratmışdır. Əlbəttə, bu işdə onun savadı, dərin biliyi, dünyagörüşü, sənətə, elmə, incəsənətə xüsusi vurğunluğunun və özünə qarşı tələbkarlığının də böyük təkanı olmuşdur.

Vüsalın ifaçılığına gəldikdə buna xüsusi dəyər verilməlidir. O, tam mükəmməl qarmon ifaçısıdır. Azərbaycan qarmon sənətinə xas olan bütün məziyyətlər-texniki imkanlar, zərifliklər, incə nüanslar, bər-bəzəklər, xırdalıqlar və digər bütün üstün cəhətlər onun ifaçılığında daim özünü göstərməkdədir.

**Sual: *- İlk illərdə hər kəs böyük sənətkarlardan öyrənir. Sizdə necə?***

- Uşaqlıq və gəncliyimdə əvvəllər Zakir Mirzəyevin, sonra Avtandil İsrafilovun və Ənvər Sadıqovun ifalarını dinləyərək onların sənətindən bəhrələnmiş və öyrənmişəm. Hər birinin çalğısında fərqli cəhətlər var. Bu xüsusiyyətlər mənim ifaçılığımın forrmalaşmasına böyük təkan verdi.

V.Qəhrəmanov 2006-cı ildən Bakı şəhəri Gözdən Əlil Uşaqlar üçün 38 saylı 11 illik musiqi məktəbinin qarmon sinfində dərs deyir. İndiyə qədər onun bu məktəb-



də uğurlu yetirmələri olub.

Burada haşiyə çıxaraq danışmasaq, günah olar. Əslində gözdən əlil uşaqlara dərs deyərək onlara musiqi təlimi vermək dəyərli, şərəfli, fərəhli olduğu qədər də çox çətin, əslində həddən artıq əziyyətli işdir. Dünya işığından məhrum olan, oğlanlı, qızlı belə uşaqların, kövrək qəlblərini ələ almaq, ruhən sağlamlıq bəxş etmək üçün onların titrək əllərindən tutub çalğı alətlərinin səs pərdələri üzərində gəzdirib ifa qaydaları öyrədərək sevindirmək ən layiqli iş deyilmi? Xırda bir nüansdan, xoşa gəlməz səsdən, sözdən, kobud rəftardan inciyərək qəlbi parçalana, küsərək taleyindən, həyatdan küsə və incik düşə bilən belə uşaqlara diqqət, qayğıdan başqa, onlara dərin məhəbbət lazımdır. Həmin uşaqların ürəkləri çox həssas, qəlbləri incə və duyğuları nəcibliklə dolu olur. Onları sevərək əzizləmək gərəkdir ki, barmaqları həssas qəlblərinin, zərif duyğularının təsiri ilə alətlərə toxuna, musiqi öyrənə və bu incə sənətə yiyələnə bilsinlər. Gözdən əlillərə ”qəlbi rövşən” deyirlər, yəni ürəyi işıqlı. Görmə qabiliyyətindən məhrum olan belə insanların hissiyyatı güclü, daxili aləmi işıqlı olur. Onları incitmək, qəlbinə dəyməklə ürəyinin işığını söndürmək olmaz. Bu barədə orada çalışan müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Vüsal müəllim belələrindəndir. O, yüksək mədəniyyətə, böyük ürəyə, əxlaqa, tərbiyəyə, həm də dözümə malik insandır. Hə, hə dözüm. Yazı müəllifi olaraq bildirirəm ki, 1970-ci ildən qarmon sənətinin tədrisi üzrə müəlliməm, staja və böyük təcrübəyə malikəm. Lakin mən gözdən əlil uşaqlara dərs deyə bilmərəm. Yəni dözə bilmərəm, daim kövrələrəm, ağlayaram və xəstəliyə düçar olaram. Doğrudan da bu işdə insandan dözüm tələb olunur. Allah qorusun, eşq olsun elə məktəbdə dərs deyən Vüsal kimi müəllimlərə. Onun pedaqoji fəaliyyəti ilə tanış olduqca adamı heyrət bürüyür və onun qarşısında baş əymək istəyirsən. Vüsal və müəllim yoldaşları dünyada ən gərəkli, çox lazımlı bir işlə məşğul olmaqla gö-



rün nə qədər adamları sevindirirlər. Sevinənlər sırasında uşaqlar özləri, ata-anaları, baba-nənələri, əmidayıları, bibi-xalaları və bir sözlə bütün doğmaları var. 38 saylı məktəbin bütün kollektivinə minnətdarlıq edərək onlara can sağlığı və böyük nailiyyətlər arzulayırıq.

*(Ardı var)*

**Əhsən Rəhmanlı**
**Tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru**